*Xurma Elsevər qızı ABBASOVA*
*magistrant*
*E-mail: xurmaabasova24@mail.com*

*Köçəri Şamil oğlu ALLAHVERDİYEV*
*c.e.n., dos. Azərbaycan Kooperasiya Universiteti*
*allahvverdiyev_1956@mail.ru*

# TALIŞ DAĞLARININ MÜASİR DAĞ-MEŞƏ LANDŞAFTLARININ REKREASİYA POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

*Xülasə*

Məqalədə dağ-meşə landşaftlarının rekreasiya potensialının qiymətləndirilməsində əhalinin yüksək sıxlığı və həddən artıq urbanizasiyalaşmış ərazilərin, meşə landşaftının iqlim şəraiti,

ərazinin hidroqrafik şəbəkəsi, relikt və ekdemik ağac növlərinin mövcudluğu, tarixi abidələr, müalicəvi və mineral sular, bulaqlar tədqiq olunur və müxtəlif elmi nəticələr əldə edilir.

***Açar sözlər: rekreasiya potensialı, rekreasiya ehtiyatları, meşə landşaftı, kurort-sanatoriya, rekreasiya funksiyası, rekreantlar və s.***

***

Ümummilli lider Heyder Əliyevin ölkəmizdə ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması naminə apardığı sosial islahatlar mühüm yer tutmuşdur. Bunun nəticəsi olaraq artan gəlirlərin qeyri-neft sektoruna yönəldirməsi ekoloji layihələrin həyata keçirilməsi imkanları xeyli genişlənmişdir.

Meşə insanlar üçün tükənməz estetika mənbəyidir. Təsadüfi deyil ki, yazıçılar, şairlər, rəssamlar, musiqiçilər öz yaradıcılığında tez-tez meşə mövzusuna müraciət edirlər. Meşə insanın sinir sisteminə müsbət təsir edir, yaradıcılıq qabiliyyətini artırır. Rekreasiya sadəcə dincəlmək deyil, hər şeydən əvvəl insanın fiziki və mənəvi gücünün bərpasıdır. Bu baxımdan meşələrin rekreasiya funksiyasının əhəmiyyəti əvəzsizdir.

Meşə landşaftları rekreasiya ehtiyatları arasında aparıcı yer tutmaqla yanaşı, rekreasiya ehtiyatlarının zənginliyi ilə seçilir. Belə ki, meşə rekreantlara sakitləşdirici təsir göstərir, səs-küy səviyyəsini azaldır. Təsadüfi deyil ki, kurort-sanatoriya və istirahət zonaları əsasən meşə, park və bağların yaxınlığında yerləşir. Xüsusilə yay istirahətlərində meşə zonaları əlverişli hesab olunur. Buna görə də ərazinin rekreasiya potensialını qiymətləndirərkən meşəlilik faizi əsas götürülür. Meşə landşaftlarının rekreasiya üçün yararlığının əsas göstəricilərinə meşə ilə örtülmə dərəcəsi, meşəni təşkil edən ağac və kolların növ zənginliyi, rütubətlənmə səviyyəsi, ekoloji vəziyyəti, su obyektlərinə görə vəziyyəti, relyefi və s. əsas götürülür [1. s,153].

Meşə təbii obyektdir. Son illər sənaye və urbanizasiyanın inkişafı ilə əlaqədar olaraq Meşələrin Rekreasiya Funksiyası anlayışı meydana gəlmişdir. Meşələrin Rekreasiya Funksiyası bu və ya digər meşəlik dərəcəsindən və meşə fitosenozunun eko-bioloji xüsusiyyətlərindən asılıdır. [2. s, 96-98].

Son zamanlarda meşələrin rekreasiya potensialının qiymətləndirilməsinə marağın artması əhalinin yüksək sıxlığı və həddindən artıq urbanizasiyalaşmış ərazilərdə meşələrin insanlara səs-küydən, gərgin əməkdən, əsəb gərginliyndən, smoqdan və s. dincəlmə imkanı verməsidir.Meşə rekreasiyası təbiətdən istifadənin bioloji formalarından biridir, meşələrin bioloji resurslarından istifadə formasıdır. Meşələr rekreasiya sisteminin vacib resurslarından biridir.

Talış dağlarında meşə landşaftlarının yayıldığı ərazi çox mürəkkəb olub, morfologiyasına görə struktur-denudasion relyef tipindəndir. Antiklinal strukturlu və intensiv qalxmalara məruz qalmış hər iki silsilə arasında, erozion tektonik relyefə malik olan Yardımlı sinklinorisi yerləşmişdir. Landşaft tipi daxilində geniş çay şəbəkəsinin inkişafı nəticəsində ərazidən axan çaylar (Lənkərançay, Viləşçay) və onların qolları relyefi parçalayaraq dərin və sıldırım yamaclı çay dərələri əmələ gətirmişdir. Relyefin kəskin parçalanması meşə landşaftının daxili diferensiasiyasına səbəb olmuşdur. Belə landşaftlar rekreantlar üçün daha çox cəlbedicidir.

Talış meşə landşaftlarının iqlim şəraiti də rekreasiyanın inkişafı üçün çox əlverişlidir. Ə.C.Əyyubova görə Azərbaycan ərazisində optimal rekreasiya fəaliyyəti üçün ən əlverişli termik şərait Naxçıvan istisna olmaqla, 700-1000, bəzi yerlərdə 1200m-dək yüksəklikdir [3, s. 63] Talış dağlarında qeyd olunan hündürlüklər üçün dağ-meşə landşaftı xarakterikdir. Buna görə də tədqiq olunan ərazidə dağ-meşə komplekslərini rekreasiya üçün komfort landşaftlar hesab etmək olar.

Landşft tipinin əhatə etdiyi sahənin iqlimi yayı quraq keçən mülayim isti iqlim tipidir. İqlimin başlıca xüsusiyyəti yay ayının quraq və bir qədər isti, qışın sərin və qismən yağışlı keçməsidir. İqlim ehtiyatlarından istifadə etmək üçün ən əlverişli vaxt mayın axırından sentyabrın birinci yarısına qədər olan dövrdür. Qalan vaxtlarda tez-tez təkrarlanan yağışlı havalar ərazinin rekreasiya imkanlarını məhdudlaşdırır. İl ərzində 500-1700 mm yağıntı düşür ki, bunun təxminən 60%- aprel-oktyabr aylarında yağır.

Təbii rekreasiya potensialının formalaşmasında ərazinin hidroqrafik şəbəkəsi, yəni çaylar və göllər əsas faktorlardandır. Onlar landşaftı bəzəyir, əlverişli mikroiqlim şəraiti yaradır, rekreasiyalara su idmanı və balıq ovu ilə məşğul olmağa imkan verir. Landşaft tipi daxilində vilayətin ən

böyük çayları yerləşməsinə baxmayaraq, onların rekreasiya məqsədilə istifadə imkanları məhduddur.

Tədqiq olunan ərazidə dağ meşə landşaflarının rekreasiya potensialının qiymətləndirilməsində nəzərə alınan ən vacib amillərdən biri relikt və ekdemik ağac növlərinin mövcudluğudur. Talış dağlarının spesifik rütubətli iqlimi və ərazinin buzlaşmaya məruz qalması burada bir çox istisevər qədim relikt və endemik ağac və kol növlərindən ibarət meşələrin qalmasına imkan yaratmışdır. Regionun nadir meşələri dendro-florasının zənginliyinə görə Qafqazda xüsusi yer tutaraq, özündə 150-ə qədər ağac və kol növləri cəmləşdirir, onların 36-sı endemik növlər olub, çoxusu Azərbaycanın Qırmızı kitabına salınmışdır. Lənkəran təbii vilayətinin üçüncü dövrə aid olan ağac və kol cinslərindən ipək, yaxud Lənkəran akasiyası, dəmirağacı, hirkan azatağacını, şabalıdyarpaq palıdı, məxməri ağcaqayın, hirkan şümşadını, ürəkyarpaq qızılağacı, hirkan əncirini və s. göstərmək olar [4, s.152].

Ərazinin rekreasiya potensialının formalaşmasında mühüm rol oynayan amillərdən biri də ərazidə yerləşən tarixi abidələrdir. Memarlıq abidələri içərisində dini- tarixi abidələr mühüm yer tutur. Bunun başlıca səbəbi isə orta əsrlər bu bölgədə islam dininin güclü təsir qüvvəsinə malik olması idi. Bunlara Hüseyn Ata, Babagil, Yaşıl Baba, Xoca Seyid türbəsi, Seyid Əbülqasım, Seyid Paşa və s. aid etmək olar [5, s. 226].

Lerikin Rvaurd kəndində qədim rəvayətlərə görə bu ərazidə H.Z.Yaqub Peyqəmbərin pirinin yerləşdiyini qeyd edirlər. Pir ziyarətgaha çevrilmişdir. Bu cür abidələrin tarixin sınağından gəlib çatması, gələcəkdə rayonda turizmin bura üçün xarakterik növlərinin inkişaf etməsi üçün əlverişli şərait yaradır.

Təbii komplekslərin rekreasiya potensialının perspektiv imkanlarının qiymətləndirilməsində müalicəvi və mineral sular, bulaqlar mühüm əhəmiyyət kəsb edir. Dünya təcrübəsindən məlumdur ki, müaicəvi əhəmiyyətli mineral suların olduğu ərazilərdə sanatoriyalar, istirahət mərkəzləri yaradılır.

Viləşçayın sahilində yerləşən İstisu - "Fatimeyi-Zəhra" şəfa sanatoriyasıdır. Rayon mərkəzindən 13 kilometr aralıda yerləşən istirahət ocağında dərdlərin dərmanı olan mineral, müalicəvi bulaqlar mövcuddur. İstirahət mərkəzində yerin dərin qatlarından 60 dərəcədən yuxarı temperaturda çıxan istisuyun tərkibində hidrogen sulfid, natrium xlor, kalsium, maqnezium hidrokarbonat və hər litrində 30 milliqram yod var. Bu da ki, bir çox xəstəliklərin-revmatizm, oynaq ağrıları, böyrək, qaraciyər, sonsuzluq, göbələk və s. kimi müalicəsində olduqca faydalıdır.

Hazırda istirahət mərkəzində 200 nəfərə qədər insanın dincəlib müalicə olması üçün hər cür şərait yaradılıb. "İstisu" istirahət mərkəzi ölkənin digər istirahət mərkəzlərindən qiymətlərinin ucuzluğu və təbiətinin gözəlliyi ilə fərqlənir. İstirahət mərkəzinin özəlliklərindən biri də ondan ibarətdir ki, burada həm yay, həm də qış aylarında istirahət edib müalicə almaq mümkündür. Onu da qeyd edək ki, "İstisu" istirahət mərkəzinə tək müalicə olunmaq üçün deyil, həm də dincəlməyə gəlirlər.

Lənkəranın isti bulaqları hələ qədimdən məşhurdur. Onların müalicəvi əhəmiyyəti XVI əsrdə müəyyən edilib. Turbaza və istisu müalicə sağlamlıq sanatoriyası Lənkəran-Lerik avtomobil yolunun yaxınlığında, rayon mərkəzindən 12 km qərbdə, Talış dağlarının ətəyində yerləşir. "Xavzava" isti mineral suyu Lənkəran-Boradigah-Masallı dəmiryolunun yaxınlığında, rayon mərkəzindən 13 km qərbdə, Talış dağlarının düzənliklə qovuşduğu ərazidə yerləşir. Bu bulağın suyundan dəri xəstəliklərinin sağaldılması üçün hələ XVIII-XIX əsrlərdə istifadə edirdilər. Müasir dövrdə burada müalicə-sağlamlıq kompleksi fəaliyyət göstərir. Tərkibində hidrogen sulfat olan bulağın kükürdlü isti suyu dəri xəstəliklərinin müalicəsi üçün xeyirlidir. "İbadi" Lənkəran-Lerik magistral xəttində, rayon mərkəzindən 15 km qərbdə yerləşir. Burada suyun temperaturu +42 dərəcəyə çatır. Təbii müalicə metodu kimi geniş istifadə olunan hidrogen sulfitli mineral isti su təbii şəkildə spontan olaraq yerdən xaric olur, bundan hovuzlar, vannalar, duşlar kimi istifadə olunur. Bu termal su mənbələri "B" kateqoriyalı Balneo müalicəvi sular olub, çıxarkən azot qazı xaric olur. Hidrogen sulfit iyinə malikdir. Minerallığı 3,8-4,0 q/l. Tərkibi xlor, sulfat anionlarından, natrium, kalium kationlarından, makrokomponentlərdən ibarət olub zəif qələviliyə (7,8-8,3) malikdir. Bu suyun tərkibində kükürd çoxdur. Belə kükürdlü isti su ilə ürək, qan-damar, ətraf sinir, oynaq-hərəkət, dəri xəstəlikləri müvəffəqiyyətlə müalicə olunur.

## ƏDƏBİYYAT

1. Dərgahov V.S. Rekreasiya-turizm ehtiyatları. Bakı: "MBA", 2008, 209 s.
2. Qəribov Y.Ə. Azərbaycan Respublikasının təbii landşaftlarının optimallaşdırılması.Bakı: Az.TU, 2012, 216 s.
3. Əyyubov Y.Ə.Azərbaycan SSR-in kurort və istirahət yerlərinin iqlimi. Bakı: 1987, 93 s.
4. Quliyeva İ.F. Talış dağlarının rekreasiya ehtiyatlarının landşaft-ekoloji xüsusiyyətləri //Azərbaycanın dağ geosistemləri:Problemlər və Perspektivlər. Azərbaycan Coğrafiya Cəmiyyətinin Əsərləri .XIX cild. S. 150-153.
5. Azərbaycan etnoqrafiyası. Üç cilddə II cild.Bakı: "Şərq-Qərb", 2007, 384 s.

***Хурма Эльсевер кызы Аббасова***
***магистр***

***Кочери Шамиль оглы Аллахвердиев,***
***доцент***
***Азербайджнский Университет Кооперации***

### Оценка рекреационного потенциала современных горно-лесных ландшафтов талищских гор

***Резюме***

В статье при оценке рекреационного потенциала горно-лесных ландшафтов, высокой плотности населения и заурбанизированных территорий, климатических условий лесного ландшафта, гидрографической сети территории, наличия реликтовых и экдемичных видов, изучаются исторические памятники, лечебные и минеральные воды, источники и получаются различные научные результаты.

***Ключевые слова: рекреационный потенциал, рекреационные ресурсы, лесной ландшафт, санаторий, рекреационная функция, рекреаторы и др.***

***Khurma Elsever Abbasova***
***master***
***Kocheri Shamil oglu Allahverdiyev***
***Ass. prof***
***Azerbaijan Cooperation University***

### Assessment of recreation potential of modern mountain-forest landscapes of talis mountains

***Summary***

In the article, in the assessment of the recreation potential of mountain-forest landscapes, the high population density and over-urbanized areas, the climatic conditions of the forest landscape, the hydrographic network of the area, the presence of relict and endemic species, historical monuments, healing and mineral waters, springs are studied and various scientific results are obtained.

***Key words: Recreation potential, recreation resources, forest landscape, health resort, recreation function, recreationists, etc.***